# "İndi jurnalist olmaq daha asandır"

## Euronews-un Mədəniyyət proqramlarının rəhbəri Wolfgang Spindler: Uzun hekayələri oxumağa indi heç kimin hövsələsi yoxdur

**Onunla ötən il Qəbələ X Beynəlxalq Musiqi Festivalında tanış olmuşduq. Rəngli geyim tərzi, xoş aurası, səmimi söhbəti və fərqli dünyagörüşə sahib biri kimi diqqətimi çəkmişdi. Bu dəfə isə 18-27 oktyabr tarixlərində keçirilən Bakı Jazz festivalı üçün Bakıda idi. Çoxdandır görüşmək üçün gün təyin edirdik və nəhayət, Xəzərin sahilində görüşdük. Müsahibimiz dünyaca məşhur Euronews kanalının meneceri, eyni zamanda kanalın Mədəniyyət proqramlarının rəhbəri Wolfgang Spindlerdir.**



Deyir ki, Azərbaycana hardasa 15-ci gəlişidir. İldə 3 dəfə - Azərbaycanda önəmli mədəniyyət hadisələri olduqda gəlir. Bu il isə Qəbələ musiqi festivalı, Nəsimi və Jazz festivallarında iştirak üçün Azərbaycana gəlib.

**- Necədir bizim məmləkət?**

- Çox gözəl. İnsanlar nəzakətlidir, illər ötdükcə ölkəniz, xüsusən də Bakınız çox dəyişir. Hər dəfə bura gələndə daha təmiz bir şəhərlə qarşılaşıram. Azərbaycan xanımları çox gözəldir. Yeməkləriniz xüsusi dada malikdir.

**- Ən çox hansı yeməyi bəyəndiniz?**

- Azərbaycanda yemək çeşidləri çoxdur və bu səbəbdən də sizə ümumi bir ad çəkə bilmirəm. Bu gün mən balıq yemişəm, çox ləzzətli və dadlı idi. Sizin lülə kababınızın özünəməxsus dadı var. Mətbəxiniz ədviyyat çeşidləri ilə zəngindir. Soyuq qəlyanaltılar, pomidor sousu, pendiriniz əladır. İlk gəlişimdə mənim bəxtim gətirmişdi. Belə ki, yanımda Mədəniyyət Nazirliyindən bir nümayəndə və sürücüm var idi. İlk axşam məni elit italyan restoranında qonaq etmək istədilər. O zaman onlara etiraz etdim ki, yerli insanların getdiyi yerlərdə olmaq istəyirəm. Sürücüyə dedim ki, sən bir bələdçi olaraq məni atanı, babanı aparacağın restoranlara apar. Beləliklə, o məni bir çox restoranlara apardı. Hətta Bakının kənarında, daha çox kasıbların yaşadığı bir yerə getdik. Səhər saat 5-də durub xaş yedik. Xaş çox zəngin bir yeməkdir.

**- Bir mədəniyyət jurnalisti kimi, Azərbaycanın mədəniyyətini necə qiymətləndirirsiniz?**

- Buna cavab vermək çətindir. Çünki mən həm bəstəkar və həm də menecer kimi sərgilər keçirirəm. Ona görə də mənim üçün mədəniyyət, incəsənət, musiqi - hamısı bir-birinə bağlıdır. Demək istəyirəm ki, bir tərəfdən müasir dövrün mədəniyyəti, digər tərəfdən isə qədim köklərə malik olan muğam sənəti. Azərbaycanın hətta dövlət olmadığı dövrlərə qədər gedib çıxan bir ənənəsi var. İmadəddin Nəsiminin vaxtına qədər gedib çıxan köhnə ənənələrə sahibsiniz.

**- Neçə ildir jurnalistikadasınız?**

- Almaniyada anadan olmuşam. Siyasət elmləri üzrə magistraturanı bitirmişəm. 3 il teatrda aktyor işləmişəm...

**- İki fərqli dünya - siyasət və teatr.**

- Bəli, iş, sənət, peşə, dünyaya baxış tərzi - hər şeyi fərqlidir. Siyasətlə mədəniyyət iki ayrı qütb kimidir.

**- Siyasətçinin teatra marağı necə yarandı?**

- Atam musiqiçi idi, akardion ifa edirdi. Atamın ailəsinin səyyar teatrı vardı. Bir şəhərdən başqa bir şəhərə gedib tamaşalar göstərirdilər. Onlar karavanda yaşayırdılar. Teatra olan marağım məhz onlardan keçib.

**- Jurnalist kimi nə vaxtdan fəaliyyətə başlamısınız?**

- Universitetdə oxuduğum illərdə işləyib, pul qazanmalı idim. Qismət elə gətirdi ki, televiziyada işləməli oldum. O vaxtdan öz yolumu seçdim.

**- Neçə il olar?**

- Təxmini 35 ildir. 1992-ci ildə Euronews kanalının əsası qoyulanda, ora müraciət etdim və işə qəbul olundum. Almaniyadan Fransanın Lion şəhərinə köçdüm, hazırda da bu şəhərdə yaşayıram. Almaniyada televiziya sahəsində jurnalist olaraq müxtəlif işlər gördüm. 1994-cü ildə kino və mədəniyyət şöbəsi üçün məsul şəxs seçildim. 1994-cü ildən bəri mədəniyyət xəbərləri proqramının direktoruyam.

**- Euronews kanalında iş rejiminiz necədir?**

- Euronews böyük bir kanaldır. Müxtəlif agentliklərdən və yazıçılardan daxil olan videoların üzərində işləyirik. Digər tərəfdən də, müxtəlif ölkələrə səyahət edir, oradakı mədəni hadisələri lentə alıram. Bundan başqa, kanalda olan işlərlə məşğul oluram.



**- Euronews dünyada tanınmış kanaldır. Kanalın məşhurluq qazanmasının sirri nədədir?**

- Bizim əvvəl CNN xəbər kanalımız yaranmışdı. Sonradan Euronews kanalı meydana gəldi. Biz eyni vaxtda beş dildə yayımlanırdıq. Hazırda isə 10 dildə yayımlanırıq. Yəni, az qala, bütün dünyanı əhatə edirik. Digər tərəfdən, SSRİ dağıldıqdan sonra keçmiş sovet ölkələri müstəqillik əldə etdilər və bu bizim üçün böyük bir auditoriya idi. Həm də post-sovet ərazisində müasir media sistemi hələ formalaşmamışdı.

Ancaq bizim dünyaya qarşı daha obyektiv baxışlarımız var. Bizi fərqli göstərən də budur. Biz bir çox dildə yayımlandığımıza görə, əhatə dairəmiz daha geniş, zəngin və müxtəlifdir. Onu da qeyd edim ki, media və televiziya sistemində bir çox "ilk"lər məhz bizə məxsusdur. Belə ki, indi hamının istifadə etdiyi "şərhsiz" rubrikasını məhz Euronews kanalı icad edib. Bu bölümdə heç bir şərh edilmir və sadəcə şəkillər danışır. Bu bir yenilik idi. Mən hətta bunu ixtira edən insanı tanıyıram. İndi elə bir adam yoxdur ki, şərhsiz bölümündən xəbəri olmasın.

**- İstərdik, kanalın mədəniyyət şöbəsindən danışasınız.**

- Mən xəbər bülleteni, həm də jurnal üçün işləyirəm.

**- Demək sizin həm də jurnalınız var?**

- Bəli. Həm jurnalist, həm də prodüserəm. Mən xəbər məzmununu seçirəm, redaksiya, müsahibələr, şərh bölümünü ingilis dilində yazıram və bunu 10 nəfər işçiyə tərcümə etdirirəm.

**- Sizə görə, jurnalistin yaşı önəmlidirmi?**

- Bəli. Biz elə bir dövrdə yaşayırıq ki, hər şeyin daha ucuz başa gəlməsini istəyirik. Gənc jurnalistlər daha ucuz başa gəlir. Yəni, cavan jurnalistləri daha az pula işə cəlb etmək olur.

**- Ancaq yaşlı jurnalistlərin təcrübəsi daha çoxdur.**

- Doğrudur. Birincisi, mənim vəzifəm çox məhduddur. Bu mənada, özümü bəxtəvər hiss edirəm. Şirkətdə belə bir işi tutmaq üçün bəlkə də 5-6 yer var. 25-26 ildir ki, bu vəzifədə çalışıram. Buna görə də bir çox insan indi mənə qibtə edir. Hər iki ildən bir rəhbərimiz dəyişir. İstər baş redaktor olsun, istər proqram direktoru. Jurnalist kimi özünü təsdiqləmək üçün bəzən hər şeyə sıfırdan başlayıb, özünü doğrultmalısan. Yaş çox olanda, təcrübən daha çox olur və keyfiyyət barədə müəyyən fikirlərin formalaşır. Amma keyfiyyətli ideyalar şirkətin axtarışında olduğu məsələlərlə uyğunlaşmaya bilər. Çünki daha az pulun xərclənilməsi istənilir. Məsələn, mən bir çox işi özüm görürəm. Misal üçün, redaktəni özüm edirəm. Kompyuterdə yenidən baxıram. Əvvəllər isə bu işi studiyada səs monitoru vasitəsi ilə edirdik.

**- İşlərin ucuz başa gəlməsi, əslində daha yaxşı deyilmi?**

- İşlərin ucuz başa gəlməsi kreativ olmaq üçün daha az vaxt deməkdir. Kompyuterdə özüm səs yazanda tək oluram və kimsə buna qulaq asıb məsləhət verə bilmir. Amma səs studiyasında isə bu barədə daha bilikli operator olur, müəyyən məsləhətlər verir və nəticədə daha keyfiyyətli iş alınır. Ola bilsin ki, sən yaxşı bir jurnalistsən, amma yaxşı bir redaktor deyilsən. Amma sən bu işin öhdəsindən tək gəlməli olursan. Şirkət istəyir ki, iş daha ucuz başa gəlsin. Ona görə də hər hansı bir redaktorla işləyə bilmirsən ki, sənə hansısa məsləhətləri versin. Bu gün bizim elə jurnalistlərimiz var ki, çəkilişi öz telefonu vasitəsi ilə etməli olur. Jurnalist bir neçə işi bir anda görmüş olur. Belə ki, müsahibə alır, şəkil çəkir, eyni zamanda düşünür. Bu o deməkdir ki, görəcəyin iş çox sadə olmalıdır. Əks halda, özün hər şeyin öhdəsindən eyni anda gələ bilməzsən. Çox vaxt işin keyfiyyətli alınması üçün çəkilişlərə kameraman və operatorla gedirik.

**- Müasir texnologiyaların yaratdığı şəraitdə jurnalistlər redaksiyadan çıxmaq istəmirlər. Sizcə, texnologiyalar jurnalistləri tənbəlləşdirirmi?**

- Jurnalisti harasa ezam etmək pul tələb edir. Sizin də dediyiniz kimi, müasir texnologiya ilə mən videomu bir saniyədə Azərbaycandan Fransaya göndərə bilirəm. İndi jurnalist olmaq daha asandır. Hər kəs telefon vasitəsi ilə jurnalist ola bilər. Problem burasındadır ki, sən yaxşı jurnalist olduğun halda, yaxşı kameraman olmaya bilərsən. Beləliklə, öhdəsindən gəlmək üçün işi sadələşdirirsən.

**- Bəs, əvvəllər necə idi?**

- Daha əhatəli və keyfiyyətli iş görmək üçün daha çox vaxtımız olurdu. İndi isə heç nəyə vaxt yoxdur.

**- Çox rəngli kostyumlar geyinirsiniz. Bu sizin iç dünyamızla, yoxsa gördüyünüz işlərlə əlaqəlidir?**

- Televiziya gözəlliyi, rəngarəngliyi sevir. Ona görə də vizual olaraq fərqli bir şəkildə geyinəndə başqalarından seçilirsən. Və belə olduqda, insanlar səni daha asanlıqla tanıyır. Bir çox insan mənim stilimi bəyənir. Oliver Ston kimi məşhur insanlardan müsahibə götürəndə, onlar sənin geyiminə baxır.

**- Sosial şəbəkələr yaranandan məşhurlaşmaq çox asanlaşıb. Bunu necə dəyərləndirirsiniz?**

- Doğrudur, indi məşhurlaşmaq çox asandır. Hər kəs bir neçə saniyə ərzində bir ulduza çevrilə bilər. 1960-cı illərdə Andy Warhol adlı amerikalı bir sənətkar demişdi ki, 15 dəqiqəlik də olsa, hər kəsin ulduz olmağa haqqı var və bu gün də bu deyim özünü doğruldur. Sizə modanı izləyən insanlarmı maraqlıdır? Onlar heç yazı da yazmır, sadəcə şəkil paylaşır. Bu sənin üçün bir əhəmiyyət kəsb edirmi? Əgər siz "facebook"dan istifadə edirsinizsə, demək yaşlısınız.

**- Niyə?**

- Çünki "facebook"da siz hansısa bir yazını oxumalısınız. Amma instaqramda bu belə deyil, sadəcə şəkillərə baxıb bəyənirsiniz, heç bu barədə düşünmürsünüz belə.



**- Yəni deyirsiniz ki, "facebook" yaşlılar üçündür, çünki orada uzun yazılar, fikirlər, hisslər əks olunur. Gənclər isə daha çox görüntünü sevir və bunun üçün "instagram"dan istifadə edirlər?**

- Düzdür, siz "facebook"da maraqlı nəsə yaratmaq istəyirsinizsə, bu çox vaxt aparır. Yəni bunun üçün uzun bir hekayə yazmalısınız. İndi heç kimin hövsələsi yoxdur ki, o uzun hekayəni oxusun.

**- Musiqi, mədəniyyət ardınca bütün dünyanı gəzirsiniz. Sizə görə, dünyanın ən gözəl yeri haradır?**

- Dünyada ən yaxşı yer deyilən anlayış yoxdur. Məsələ sizin gözləntilərinizdir. Əgər siz musiqini sevən bir ölkəyə getmək istəyirsinizsə, festivallara qatılmalısınız. Çünki o festivallarda 10 minlərlə insan iştirak edir, bəzən də 100 mindən çox. Təkcə mənim fikrimi soruşursunuzsa, sakit bir yerə getmək istəyirəmsə, onda dağlarda yerləşən evimə çəkilirəm. Orada internet və mobil telefon yoxdur. Səssiz və sakit bir guşədə özümlə tək qalıram.

**- Səfərlərdə heç sevginizi tapmısınızmı?**

- Mənim sevginin axtarışında olmağa o qədər də vaxtım yoxdur. Əgər sevgini tapsanız, o zaman diqqətdən yayınırsınız.

**Xəyalə Rəis**